# Qəlblərdə yaşayan ümummilli lider

## Ölməz şəxsiyyət

Heydər Əliyev Mərkəzində ulu öndərin anadan olmasının 96 illiyi ilə əlaqədar "Ölməz şəxsiyyət" adlı tədbir keçirilib. Tədbirdə şəhər 4 nömrəli tam orta məktəbin müəllimləri, şagirdləri, rayon tarix-diyarşünaslıq muzeyinin əməkdaşları iştirak ediblər.

Tədbiri giriş sözü ilə Heydər Əliyev Mərkəzinin direktoru əvəzi Kəmalə Qasımova açıb. O, bildirib ki, tarix boyu elə nadir şəxsiyyətlər olmuşdur ki, onlar xalqlarının, vətənlərinin dar günlərində bütün varlıqları ilə, həyatları bahasına olsa belə meydana atılmış, öz xilaskarlıq missiyalarını yerinə yetirmişlər. Belə şəxsiyyətlərdən biri də ulu öndər Heydər Əliyevdir. Heydər Əliyev Azərbaycanı məhv olmaq, dünya xəritəsindən silinmək təhlükəsindən qurtarmış fenomen şəxsiyyətdir.

Məkrəzin əməkdaşı Mahirə Kərimova çıxışında qeyd edib ki, Heydər Əliyev Azərbaycana bir-birinin əksi olan iki ictimai-siyasi quruluşda rəhbərlik etmişdir. Ulu öndər rəhbərliyinin hər iki dönəmində də bir amal uğrunda, Azərbaycanın xoşbəxt gələcəyi naminə mübarizə aparmış və bu şərəfli mübarizəsində hədsiz dərəcədə nəhəng işlər görmüş və qələbə çalmışdır.

Ümummilli liderimiz güclü, müstəqil Azərbaycan dövlətinin möhkəm əsasını qoymaqla yanaşı bütün dünya azərbaycanlılarını eyni amal uğrunda birləşdirən Azərbaycançılıq ideologiyasını da yaratmışdır.

Rayon icra hakimiyyətinin məsul işçisi Vüsalə Rəsulova çıxış edərək bildirib ki, bizim əsas vəzifəmiz ulu öndər Heydər Əliyevin xalqımız, Vətənimiz və dövlətçiliyimiz qarşısındakı xidmətlərini gənc nəslə lazımi səviyyədə çatdırmaqdan ibarətdir.

Tədbirin sonunda Heydər Əliyevin həyatından və siyasi fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib.

**"Qəbələ"**

## Heydər Əliyev və Azərbaycan gəncliyi

Rayon gənclər və idman idarəsi ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda dəyirmi masa keçirmişdir. Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə rayonun fəal gəncləri, turizm və otelçilik üzrə peşə tədrisi mərkəzinin, Qəbələ Dövlət Peşə Təhsili Mərkəzinin kollektivləri və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Tədbir iştirakçıları əvvəlcə ulu öndərin mərkəzdəki büstü önünə gül dəstələri qoyaraq onun xatirəsini yad etmişlər. Sonra ümummilli liderin həyat və fəaliyyətini əks etdirən ekspozisiya zalına baxmışlar.

Konfrans zalında davam edən tədbiri rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov açaraq dahi şəxsiyyətin Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğıdan, gənclərlə bağlı dövlət siyasətindən danışmış, ulu öndərin əsasını qoyduğu gənclər siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirmişdir.

YAP Qəbələ Rayon Təşkilatının aparat rəhbəri Elçin Tağıyev və şəhər 5 nömrəli tam orta məktəbin müəllimi Tahir Məsimov çıxış edərək ümummilli liderin siyasi irsindən danışmışlar.

Tədbirin sonunda iştirakçıların ulu öndərin həyatı və fəaliyyəti ilə bağlı sualları cavablandırılmışdır.

**Məhəmmədəli SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**

## Ümummilli liderə həsr olunmuşdur

Ümümilli lider Heydər Əliyevin 96 illiyi ilə əlaqədar bütün mədəni-maarif müəssisələrində silsilə tədbirlər həyata keçirilmişdir.

Bu günlərdə Qəbələ Mədəniyyət Mərkəzində "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" mövzusunda dəyirmi masa təşkil edilmişdir. Tədbirdə Heydər Əliyevin siyasi fəaliyyəti haqqında geniş söhbət açılmış və ulu öndərin Azərbaycan mədəniyyətinə göstərdiyi qayğıdan danışılmışdır.

**"Qəbələ"**

## Dahi şəxsiyyətə həsr olunub

Qəbələ Dövlət Peşə Təhsili Mərkəzində ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 96 illiyi ilə əlaqədar tədbir keçirilmişdir.

Mərkəzin direktoru Azad Məmmədov tədbir iştirakçılarına Heydər Əliyevin siyasi fəaliyyəti haqqında geniş məlumat vermiş, onun ölkəmizdə təhsilin, elmin inkişafındakı rolundan, kənd təsərrüfatı sahəsində böyük xidmətlərindən, azərbaycan gənclərinə olan diqqət və qayğısından bəhs etmişdir.

Sonda ulu öndərə həsr olunmuş videoçarx nümayiş etdirilmişdir.

**"Qəbələ"**

## Ulu öndərin anadan olmasının ildönümü qeyd edilib

Rayon mərkəzi xəstəxanasında ulu öndər Heydər Əliyevin 96 illiyi ilə əlaqədar tədbir keçirilib.

Toplantıda rayon mərkəzi xəstəxanasının baş həkim Sabir Bayramov Heydər Əliyevin həyatı və fəaliyyəti barədə məlumat verib.

Çıxış edənlər ulu öndərin daim səhiyyənin inkişafına diqqətlə yanaşdığını qeyd edib, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi və kadr potensialının gücləndirilməsi istiqamətində gördüyü işlərdən söz açıblar.

Vurğulanıb ki, dahi şəxsiyyətin təşəbbüsü ilə səhiyyə sistemində aparılan islahatlar xidmətin keyfiyyətcə yaxşılaşmasına zəmin yaradıb.

**"Qəbələ"**

## Ümummilli liderin 96-cı ildönümü

Xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Heydər Əliyevin anadan olmasının 96 illiyi münasibətilə Qəbələ Müalicə Diaqnostika Mərkəzində toplantı keçirilib. Toplantıda ulu öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından söhbət açılıb.

Toplantıda çıxış edənlər bütün fəaliyyəti boyu xalqımızın milli-mənəvi dəyərlərinin qarantı olan, onların qorunmasına çalışan görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin səhiyyə sahəsinin hərtərəfli inkişafı üçün gördüyü işlərin konkret nəticələr verdiyini diqqətə çatdırıblar.

**"Qəbələ"**

*Qəbələ regional "ASAN xidmət" mərkəzinin əməkdaşları, Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin kollektivi ilə birlikdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyi ilə əlaqədar tədbir təşkil etmişlər.*

*Tədbir iştirakçıları əvvəlcə ümummilli liderin abidəsi önünə gül dəstələri düzmüşlər.*

## Birgə tədbir

*Heydər Əliyev Mərkəzində davam edən toplantıda çıxış edənlər ulu öndərin tarixi xidmətlərindən söz açmışlar. Qeyd olunmuşdur ki, müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişafında dahi rəhbərin əvəzsiz xidmətləri olmuş və Azərbaycan ulu öndərin gələcəyə hesablanmış siyasəti nəticəsində çox qısa zamanda beynəlxalq arenada layiqli yerini tutmuşdur.*

*Tədbirdə son 15 ildə bu siyasəti uğurla davam etdirən ölkə başçısı İlham Əliyevin Azərbaycanı inkişafa aparan strategiyasının müsbət nəticələr verdiyi, dünya birliyi tərəfindən yüksək qiymətləndirildiyi vurğulanmışdır.*

***"Qəbələ"***

## Təhsil ocaqlarında

Rayon təhsil şöbəsində ulu öndər Heydər Əliyevin anadan olmasının 96 illiyi ilə əlaqədar geniş tədbirlər planı hazırlanmışdır.

Plana əsasən mayın 6-da şəhər 5 nömrəli tam orta məktəbdə ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş elmi-praktik konfrans keçirilmişdir. Dahi rəhbərin xatirəsinə həsr olunmuş "Sən elə bir zirvəsən" adlı şeir müsabiqəsində məktəbin şagirdləri iştirak etmişlər.

* * *

Şəhər 1 nömrəli tam orta məktəbində keçirilən müsabiqə də çox maraqla qarşılanıb.

* * *

Uşaq gənclər idman-şahmat məktəbi tərəfindən ulu öndərin doğum günü münasibətilə yeniyetmələr arasında futbol və şahmat yarışları keçirilmişdir.

* * *

Dahi rəhbərə həsr olunmuş inşa yazı müsabiqəsində şəhər 4 nömrəli məktəbin şagirdləri xüsusilə fəallıq göstərmişlər.

* * *

Yubiley münasibətilə uşaq gənclər yaradıcılıq mərkəzinin təşkil etdiyi sərgidə şagirdlərin əl işləri nümayiş olunmuşdur.

* * *

Ulu öndərin doğum günü münsibətilə bütün ümumtəhsil məktəblərində guşələr, stendlər hazırlanmış, şagirdlərin Heydər Əliyev Mərkəzinə ekskursiyaları təşkil edilmiş, ulu öndərin həyat və fəaliyyətindən bəhs edən xüsusi dərslər keçirilmişdir.

**Aslan ŞİRAZOV,**
**təhsil şöbəsinin metodisti.**

## Taekvondo üzrə rayon birinciliyi

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr olunmuş yeniyetmələr arasında taekvondo üzrə rayon birinciliyi keçirilmişdir.

"Qafqaz" Sport Otelin idman zalında baş tutan yarışda 100-dək idmançı iştirak etmişdir.

Yarışda iki yaş qrupunda 10 çəki dərəcəsi üzrə 100-dən çox yeniyetmə güclərini sınamışdır.

Birinciliyin yekununda qaliblərinin mükafatlanma mərasimi olmuşdur. Gərgin idman mübarizəsi şəraitində keçən birincilikdə qalib gəlmiş idmançılara gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**idarənin aparıcı məsləhətçisi.**

## Müstəqilliyimizin qurucusu

Turizm və otelçilik üzrə peşə tədris mərkəzində ulu öndər Heydər Əliyevin anadan olmasının 96 illiyi ilə əlaqədar "Heydər Əliyev - müstəqilliyimizin qurucusu" mövzusunda tədbir keçirilmişdir.

Tədibiri giriş sözü ilə açan mərkəzin direktoru Eyvaz Kazımov qeyd etmişdir ki, müstəqilliyimizin ilk illərində dövlətçiliyimizi məhv olmaq, ölkəni parçalanmaq, Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən qurtarmaq üçün xalq öz xilaskarı Heydər Əliyevə müraciət etmişdir. O, xalqımızın çıxış yolunu zəngin təcrübəyə malik, görkəmli siyasi xadim, Azərbaycanın böyük oğlu Heydər Əliyevin şəxsində gördüyünü və onu siyasi hakimiyyətə dəvət etdiyini diqqətə çatdırmışdır.

Mərkəzin direktor müavini Reyhan Məmmədova çıxışında Heydər Əliyevin ölkəmizə özü ilə böyük dövlətçilik təcübəsi gətirdiyini bildirmiş, ümummilli liderin "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına xidmət olmuşdur" tarixi fikirlərinin onun öz vətəninə, xalqına nə qədər bağlı olduğundan xəbər verdiyini söyləmişdir.

Mərkəzin müəllimi İlham Əfəndiyev azad, suveren bir dövlət olan Azərbaycanın bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında daha da inkişaf etdiyini, dünya birliyində öz yerini möhkəmləndirdiyini vurğulamışdır.

Tədbirin sonunda tədris mərkəzi tələbələrinin ifasında ulu öndərə həsr olunmuş şeirlər və musiqi nümunələri səsləndirilmişdir.

**"Qəbələ"**